**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın vətəndaş Hacıyeva Güllər Rəhim qızı Mərkəzi Seçki Komissiyasına daxil olmuş 04 yanvar 2010-cu il tarixli 389 saylı müraciəti üzrə**

# R Ə Y İ

**Bakı şəhəri** **05 yanvar 2010-cu il**

**Saat 15:00**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 82 saylı Ağcabədi seçki dairəsi üzrə Hacıyeva Güllər Rəhim qızı 2010-cu il yanvarın 04-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək, həmin dairə seçki komissiyasının məntəqələr üzrə səslərin hesablanmasında saxtakarlığa yol verildiyini bildirmiş və tədbir görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq araşdırmaya qəbul edilmişdir.Müraciət tam,hərtərəfli və obyektiv surətdə araşdırılmışdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci tələblərinə uyğun olaraq şikayət qanunla müəyyən olmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətdən (hərəkətsizliyinin) baş verilməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki

Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə  g ə l d i m :**

1. Vətəndaş Hacıyeva Güllər Rəhim qızı Azərbaycan Respublikası Mərkəzi Seçki Komisiyyasına daxil olmuş 04 yanvar 2010-cu il tarixində 389 saylı müraciəti qanunvericilklə müəyyən olmuş şikayətvermə müddəti ötürüldüyündən ərizəçiyə geri göndərilsin.

2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilisin) və surəti müraciyətçiyə göndərilirsin.

Ekspert qrupunun üzvü V.Kazımova